

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 239 (24.376)

23 dekabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa və Xocalı rayonlarında olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Şuşa rayonundakı “Saxsı” bulağında olub.

Bildirildi ki, bulaq Şuşa şəhərinin şimal-qərb hissəsində, təxminən, 5 kilometr məsafədə, Şuşa-Laçın yolunun üzərində yerləşir. Bulağın suyu tərkibinə görə çox keyfiyyətli olduğu üçün daim şuşalıların və şəhərin qonaqlarının diqqət mərkəzində olub. İnsanlar bu əraziyə istirahət etmək üçün üz tutublar. Əvvəllər qayadan süzülən su sonradan metal boruya salınıb və daim axır. Bulaq hazırda mövcuddur. Şuşa şəhəri işğal olunanadək bulağın üstündə restoran inşa edilib. Bəzi məlumatlara görə, bulaq metal boruya salınmamışdan əvvəl qayadan çıxan su qədim saxsı borudan süzülüb gəldiyi üçün bulağa insanlar arasında “Saxsı” bulaq adı verilib və bu ad günümüzə qədər gəlib çatıb. Şuşa şəhəri işğal ediləndən sonra ərazi uzun illər baxımsız qalıb, restoranın binası yarıuçuq vəziyyətə salınıb.





* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Şuşa rayonundakı “Turşsu” bulağında olub.

Dövlətimizin başçısı bulaq ərazisinə baxış keçirdi.

Qeyd olundu ki, Şuşa rayonunun ərazisində bir neçə belə su mənbəyi var. Turşsu qəsəbəsinin yaxınlığındakı bu bulağın suyu fasilələrlə – təxminən, bir saatdan da artıq müddətdən bir axır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Şuşa rayonunun Turşsu qəsəbəsində olub.

Dövlətimizin başçısı qəsəbənin ərazisinə baxış keçirdi.

Qəsəbə 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Hazırda Turşsu qəsəbəsində 353 ailə – 1403 nəfər qeydiyyatdadır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Naxçıvanlı kəndində olub.

Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Pircamal kəndində olub.

Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Xanabad kəndində olub.

Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirib.

Xanabad kəndi qədim yaşayış məskənlərindən biri kimi tanınır. 1990-cı ildə kənddə kooperativ zavodun tikintisi zamanı inşaatçılar tərəfindən qədim qəbir aşkar edilib. Həmin qəbirə baxış keçirilərkən insan cəsədindən əlavə, qədim döyüş və məişət əşyaları aşkarlanıb. Müvafiq təhlillərdən sonra bu əşyaların eramızdan əvvəl XII-XI əsrlərə aid olduğu müəyyən edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Pirlər kəndində olub.

Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirib.

Bu yaşayış məntəqəsi kənd təsərrüfatı və turizm sahələrində böyük potensiala malikdir.

**AZƏRTAC**

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının səkkizinci iclası keçirilib



Dekabrın 22-də Ali Məclis sədrinin müavini Anar İbrahimovun sədrliyi ilə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının səkkizinci iclası keçirilib.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş)
2. “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş)
3. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının layihəsi

Gündəlikdə duran birinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, qanun layihəsi 18 dekabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20-ci maddəsinin tələblərinə uyğun olaraq ikinci oxunuşda müzakirə edilib. Bütövlükdə isə bu prosesə ötən ayın sonlarından başlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən aparıcı komitə tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclis iclasının gündəliyinə salınıb.





Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev məlumat verib ki, “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi komitənin iclasında redaktə məqsədilə baxılıb və layihə üçüncü oxunuşda müzakirə olunması üçün Ali Məclisin 2023-cü il payız sessiyasının növbəti iclasının gündəliyinə salınması üçün təqdim olunub.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov Ali Məclisin plenar iclaslarında büdcə zərfinə daxil olan sənədlərin müzakirələri zamanı deputatların qaldırdıqları sualları cavablandırıb.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanunu səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Anar İbrahimov muxtar respublikanın 2024-cü il büdcəsinin, qanun layihəsinin hazırlanmasında və müzakirəsində əməyi olanlara təşəkkür edib.

Gündəlikdə duran ikinci məsələ – “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin üçüncü oxunuşda müzakirəsi zamanı Ali Məclisin sədr müavini Anar İbrahimov bildirib ki, qanun layihəsi 19 dekabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20-ci maddəsinin tələblərinə uyğun olaraq ikinci oxunuşda müzakirə edilərək qəbul edilib və redaktə edilmək üçün Sosial siyasət komitəsinə qaytarılıb. Ali Məclisin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən aparıcı komitə tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclis iclasının gündəliyinə salınıb.

*Ardı 2-ci səhifədə*





Qanun layihəsi ilə əlaqədar Ali Məclisin Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova məlumat verib ki, "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun layihəsi ikinci oxunuşdan sonra baxılıb, Ali Məclisin 2023-cü il payız sessiyasının növbəti iclasına üçüncü oxunuşda müzakirə olunması üçün təqdim olunub.

"İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Bununla da büdcə zərfinə daxil olan qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov çıxış edərək büdcə müzakirələrinin yüksək səviyyədə aparılmasına və səmərəli təşkilinə görə deputatlara hökumət üzvləri adından təşəkkür edib.

Səbuhi Məmmədov bildirib ki, istər sessiya, istərsə də komitə iclaslarında deputatlar çox fəal iştirak edib və əhalini narahat edən məsələlərlə bağlı bir çox fikirlər səsləndirilib, hökumətə ünvanlanmış suallar cavablandırılıb və öncəki oxunuşlarda səsləndirilən bəzi problemlər artıq operativ şəkildə öz həllini tapıb. Qaldırılan bir sıra məsələlər, verilən təkliflər baxılması üçün hökumətin nəzarətinə götürülüb. Baş nazir muxtar respublikanın 2023-cü il iqtisadi göstəriciləri, 2024-cü il büdcəsinin gəlir və xərcləri barədə ətraflı məlumat verib.

Anar İbrahimov Ali Məclisin üzvləri adından müzakirələrdə fəal iştirak etdikləri üçün hökumət üzvlərinə təşəkkür edərək bildirib ki, büdcə prosedurları ilk dəfə Naxçıvan Muxtar Respublikasında qanuna uyğun olaraq aparılmağa çalışılıb. Ali Məclisin və Nazirlər Kabinetinin ən böyük uğuru büdcə müzakirələrinin ictimai rəyə açıq və tam şəffaf keçirilməsinə başlamaq olub. Bu hesabatlılıq, şəffaflıq dövlət başçısının hər birimizin qarşısında qoyduğu əsas vəzifələrdən biridir. Bunun təmin olunmasında yalnız Ali Məclis və hökumət yox, muxtar respublika və ölkə mediasının da töhfəsi olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov qeyd edib ki, Ali Məclisin Daxili Nizamnaməsinin 56-cı maddəsinə əsasən Ali Məclisin xərclər smetası Ali Məclisdə növbəti ilin büdcəsinə baxılarkən təsdiq edilir. Buna müvafiq olaraq "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında" qərar layihəsi hazırlanıb.

Ali Məclisin 2024-cü il üçün xərclər smetası haqqında Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynli məlumat verib.

Qərar səsə qoyularaq qəbul edilib.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırdı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq



***"Nəyi necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm".***

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV**

## Sözü və əməli bir olan Müzəffər Ali Baş Komandan

*Tarixi günlər yaşayırıq. Yüzillik tarixin şahidləriyik bu gün. Bəzi proseslərin bitməsinə, başqa proseslərin başlamasına, dəyişən yeni dünya düzəninə şahidlik edirik indi hər birimiz. Bir də dəyişən Azərbaycan reallıqlarına, Cənubi Qafqazda məhz Azərbaycanın diktə etdiyi, yönləndirdiyi, dəyişdirdiyi yeni geosiyasi gerçəkliyə şahidlik edirik. 20 il bundan əvvəl təkcə başqa xalqlara yox, elə bizim özümüzə də yuxu kimi görünənlərin bu gün reallığa çevrilməsi böyük tarixin yenidən yazılması üçün görülən işlərin, aparılan mübarizənin nəticəsidir.*

Cənab Prezidentin hələ bu il oktyabrın 15-də Xankəndidəki çıxışı zamanı ***"Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq"*** bəyanatından sonra 3 il əvvəlki hadisələri də xatırlamalı oldum. Üçtərəfli bəyanatın maddələrinin izahında yaşanan çaşqınlıq, Qarabağın bəzi hissələrinin tam azad edilməməsi və bu fonda media vasitəsilə həmin yaşayış məntəqələri haqqında tirajlanan fərqli məlumatlar hər bir Azərbaycan vətəndaşında ciddi suallar yaratmışdı. Bundan istifadə edən bəzi cılız media qurumları aparılan siyasətə və qazanılan qələbəyə kölgə salmağa çalışırdılar.

İnsanlarda inamsızlıq və ümidsizlik yaratmaq məqsədilə o zamanlar tirajlanan informasiyalara qarşı ölkə Prezidentinin ***"Mən o vaxt demişdim ki, nəyi necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm"*** fikirləri isə keçən müddət ərzində bütün daşların yerinə oturduğunu, bütün arzuların gerçəkləşdiyini bir daha bizə göstərdi. Azərbaycan Prezidenti Xankəndidə, Xocavənddə, Xocalıda, Ağdərədə, Əsgəranda, Sərsəngdə bayrağımızı göylərə çəkdi. Hər şeyin ən doğru vaxtını bilənlərə və ümidsizliyə düşənlərə də bir üzr borcludur indi həmin "media quruluşları". Böyük səhvə düşdülər və əlbəttə ki, yanıldılar.

Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti" də 100 il bundan əvvəl – 1923-cü ildə yaradılmışdır. Məhz elə buna görə bu, 100 ilin tarixidir. Qarabağın azadlığı Azərbaycan tarixinin müstəqillikdən sonra ən böyük hadisəsidir. Bir əsrlik qələbədir, ürəyi Azərbaycanla döyünən hər kəsin qələbəsidir. Xankəndidəyik, Xankəndinin mərkəzindəyik. Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında.

Avrasiyada mühüm nəqliyyat qovşağına çevrilən Azərbaycan gücləndi, dünya miqyasında özünə layiq yerini tutdu. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi təkcə bölgədə deyil, daha da böyük coğrafiyada böyük məna daşıyır. İndi Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Məlum münaqişənin həlli üçün güclü siyasi və hüquqi zəmin yarandı. ***"Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır"***, – deyərək bu prinsipi prioritet elan edən dövlət başçısı məhz bu iki amilin başlanğıcı ilə qarşısına qoyduğu böyük vəzifəni yerinə yetirdi.

Təmkinlə gözləmək və ilmə-ilmə toxumaq – gələcək amal uğrunda səbirlə çalışmaq. İstədiyimiz isə o torpaqlarda dalğalanan Azərbaycan Bayrağı idi. Azərbaycan həmişə sülhün tərəfdarı və carçısı olub. Problemin sülh yolu ilə həll olunması da ölkə başçısının çalışdığı birinci istiqamət idi. ***"On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır"***, – deyən Prezident dünya ölkələrinin prosesə göstərdiyi laqeyd münasibət, bu məsələ ilə məşğul olmuş vasitəçilərin faktiki olaraq münaqişəni dondurmaq istəyi, münaqişəni əbədi etmək istəyi fonunda onların arzularını və istəklərini puç etməyi növbəti dəfə bacardı.

***"Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır"***, – deyərək xalqa bağlılığın, xalqla həmrəy olmağın, Lider-Xalq birliyinin ən yaxşı nümunəsini bir daha dünyaya bəyan etdi. Dekabrın 21-də Xankəndidə keçirilən "Qarabağ"-MOİK oyununda isə cənab Prezident bu barədə fikirlərini belə ifadə etdi: ***"Bugünkü oyunun nəticələrindən asılı olmayaraq, qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması, təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir"***.

Xankəndidə Azərbaycan Bayrağının ucaldılması ilə "erməni Qarabağı"nın tarixinə son qoyuldu. Xarici oyunçuların bir çoxunun Azərbaycanın bu əraziyə nəzarəti güc hesabına bərpa etməsindən narazılığına baxmayaraq, Qarabağın Azərbaycana mənsub olmasını heç kim danmır. Bu il sentyabrın 29-da Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda Azərbaycanın öz ərazilərində suveren hüquqlarını bərpa etmək üçün keçirdiyi lokal xarakterli antiterror tədbirlərini beynəlxalq müstəviyə ölkəmiz əleyhinə çevrilmiş proseslər kimi təqdim etməyə çalışan, beynəlxalq hüquqa uyğun şəkildə görülən işləri Azərbaycanın həyata keçirdiyi "qanunsuz əməllər" kimi əks etdirməyə çalışan, nədənsə 30 il ərzində beynəlxalq hüququn bərpa olunmasına qarşı kar, kor və lal olan bəzi qüvvələrin indi birdən-birə Azərbaycana qarşı fəal mövqeyə keçib ölkəmizi ədalətsiz proses aparmaqla günahlandıran erməni havadarlarına isə Ali Baş Komandan olaraq ölkə başçısının dediyi sözlər və verdiyi açıq mesajlar, xüsusilə Şərqi Zəngəzurda olduqca qüdrətli və əzəmətli səsləndi. ***"Biz, nəticədə, harada istəsəydik, orada dayanacaqdıq. Bunu demək o qədər də çətin deyil. Ancaq bizim niyyətimiz bundan ibarət deyildi. Biz Ermənistanın ərazi bütövlüyünü tanımışıq, bunu bəyan etmişik və bunu səmimi deyirik. Yəni bizim başqa niyyətlərimiz olsaydı, əməliyyat sentyabrın 20-də dayanmazdı. Mən bunu hər kəsin bilməsini istəyirəm. Bunu Ermənistan hakimiyyəti də bilsin, onun arxasında duran himayədarları da bilsin"*** kimi əsl sərkərdə, Ali Baş Komandan açıqlaması bizim hərbi-siyasi gücümüzü, beynəlxalq müstəvidəki iradəmizi çox açıq və qətiyyətli şəkildə bütün dünyaya bəyan etməkdir. Bu bizim sözümüzə sadiqliyimizin, sülh tərəfdarı olduğumuzun və regionun gələcəyi üçün əhəmiyyətli işlər görmək istədiyimizin ən yaxşı təzahürü idi. ***"İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın"***, – deyən cənab İlham Əliyevin rəhbərliyi ilə hər gün, hər saat bu müqəddəs məqsədə çatmaq üçün atılan addımlar öz bəhrəsini verdi. Biz xoşbəxt nəsilik ki, canlı əfsanənin şahidi olduq: bu günü canlı yaşadıq və gördük. Müzəffər Sərkərdə 100 illik problemə – erməni separatizminə son qoydu. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atılıb. İndi bizim ayaq səslərimiz Xankəndidən gəlir. Şəhidlərin ruhuna ehtiram və vətənpərvərlik nümunəsi kimi ilk dəfə olaraq Xankəndi stadionunda keçirilmiş oyunda qəhrəman şəhidlərimizin uşaqları və ailə üzvləri də iştirak etdilər; Ölkə başçısının sözləri ilə desək: ***"Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq... Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər"***.

***"Bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq"***, – deyən cənab Prezidentin oktyabrın 15-də və dekabrın 21-də Xankəndiyə tarixi səfərləri Ulu Öndər Heydər Əliyevin 100 illiyinə, prezidentliyinin 20 illiyinə ən layiqli töhfə, xalqın qarşısında verdiyi sözləri tutmasına ən yaxşı sübut, bu günə qədər görülən işlərin yekun hesabatı idi. Başqa sözlə desək: ***"Mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, baxsın bu kadrlara yaxşı baxsın"***.

*O çətin dövrlərdən bu günə qədər keçdiyimiz yol şərəf və ləyaqət yoludur. Biz toparlandıq, güc yığdıq. Azərbaycan xalqı 1993-cü ildə öz müdrikliyini bir daha göstərdi, Ulu Öndər Heydər Əliyevə dəstək verdi, onu prezident vəzifəsinə seçdi və o vaxtdan bu günə qədər inkişaf yolu ilə gedir. Biz Ümummilli Liderin 100 illiyini Onun siyasətinə, Onun tarixi irsinə hörmət göstərərək, Onun siyasətini davam etdirərək qeyd edirik. Son 20 il ərzində isə bu inkişaf daha da sürətlidir və bütün sahələrdə özünü göstərir.* ***"Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq".***

**Məmməd BABAYEV**

# Qurucu lider, müzəffər komandan

# Qalib xalqın LİDERİ



Dünyanın siyasi tarixinə nəzər saldıqda xalqların taleyinə, bəşəriyyətin gələcəyinə təsir edən həlledici faktorlar sırasında lider amili xüsusi olaraq diqqəti cəlb edir. Çünki lider yalnız tərəfdarlarını arxasınca aparan rəhbər deyil, o həm də tarix yazan, tarixin gedişatına həlledici təsir göstərən şəxsiyyətdir. Bu mənada, liderlik həm də bir vəzifədir. Müasir dövlətçilik tariximizdə bu vəzifəni üzərinə götürən və onu layiqincə təmsil edən dövlət xadimi isə böyük şəxsiyyət və strateq cənab İlham Əliyevdir. Prezident İlham Əliyev 2003-cü ildə hakimiyyətə gələndə ona qalan miras bir tərəfdən ictimai-siyasi sabitliyi təmin edilmiş, dövlət strukturları bərpa olunmuş Azərbaycan idisə, digər tərəfdən həm də torpaqlarının 20 faizi erməni işğalı altında olan, iqtisadiyyatının və ordu quruculuğunun həyata keçirilməsi tələbi olan, bir milyondan çox qaçqın və məcburi köçkünün problemlərinin həll edilməsi zərurəti olan Azərbaycan idi. Bütün bu və digər çoxsaylı məsələlərlə bərabər həm də sürətlə dəyişən və daim rəqabət halında olan dünya nizamında Azərbaycanın yerinin və rolunun, nüfuzunun artırılması zərurəti var idi. Yəni istər daxili, istərsə də xarici siyasətdə elə strateji həmlələr etmək lazım idi ki, onlar, nəticə etibarilə, milli inkişafımıza və ərazi bütövlüyümüzün bərpa olunmasına gətirib çıxarsın. Bütün bunların hamısını edə bilmək isə mövcud qlobal və milli çağırışlar kontekstində, ikili standartların mövcud olduğu dünya nizamı, rəngli inqilablar erasında, əslində, bir möcüzə idi və cənab İlham Əliyev bu möcüzəni yarada bildi.

Dövlətimizin başçısı prezidentlik fəaliyyətinə başlayandan “güclü iqtisadiyyat – güclü dövlət” prinsipini əsas götürdü. Azərbaycan xalqına müraciətində də bu istiqamətdə icra ediləcək genişmiqyaslı tədbirlərin anonsunu diqqətə çatdırdı, qısa müddətdə imzalanan Dövlət proqramları, fərman və sərəncamlarla yeni iqtisadi quruculuq prosesinə start verildi. Reallaşdırılan məqsədyönlü layihələr nəticəsində qısa zamanda sürətli iqtisadi inkişaf, dövlətin maliyyə imkanlarının genişlənməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın neft-qaz amilindən asılılığının əhəmiyyətli dərəcədə azaldılması, iqtisadi şaxələndirmə siyasətinin uğurla həyata keçirilməsi, regionların sürətli sosial-iqtisadi inkişafı təmin olundu, Azərbaycan geniş investisiya imkanlarına malik donor ölkəyə çevrildi. Ölkəmizdə yaradılan əlverişli biznes və investisiya mühiti, respublikamızın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırdı. Eyni zamanda Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirdi. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr Avropanın enerji təhlükəsizliyinin gerçəkləşməsində mühüm rol oynadı. Bütün bunlar iqtisadiyyata davamlı investisiya qoyuluşunu şərtləndirdi. Bunun da nəticəsində cənab İlham Əliyevin prezidentliyi müddətində qeyri-neft-qaz sahələrinə yönəldilən investisiyalar 7,2 dəfə artdı. Başqa sözlə, bu dövrdə Azərbaycanın qeyri-neft-qaz sektoruna 200 milyard dollar həcmində sərmayə yatırıldı. Respublikamızdan digər ölkələrin iqtisadiyyatlarına qoyulan investisiyaların ümumi həcmi isə 28,3 milyard dollara yüksəldi.

Xüsusilə vurğulanmalıdır ki, Azərbaycana investisiya qoyuluşunun davamlı olmasını şərtləndirən məqamlar sırasında ölkəmizdə yaradılan sabitlik, əmin-amanlıq, xalq-iqtidar birliyi, milli həmrəylik kimi amillər önəmli rol oynayıb. Xarici sərmayədarların respublikamıza genişhəcmli investisiya qoymaq marağı da daha çox bundan irəli gəlib. Nəticədə, Azərbaycan Prezidentinin ölkəyə rəhbərliyi dövründə ümumi daxili məhsulun həcmi artaraq 6,2 milyard dollardan 78,7 milyard dollara çatıb. Ölkənin strateji valyuta ehtiyatları 1,4 milyard dollardan 58,5 milyard dollara yüksəlib, 2002-ci il ilə müqayisədə yoxsulluq səviyyəsi 46,7 faizdən 5,5 faizə enib.

Həmçinin qeyd olunmalıdır ki, iqtisadi inkişafın təmin olunması sosial sahələrin də inkişafına yeni imkanlar açıb. Dövlət başçısının sosial sahə ilə bağlı inqilabi qərarları hər bir vətəndaşın və bütövlükdə, cəmiyyətin rifahını təmin edib. Cənab İlham Əliyevin vurğuladığı kimi: ***“Sosial sahə bizim üçün prioritet sahədir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu istiqamətdə aparılan islahatlar artıq özünü göstərir”.*** Beləliklə, sistemli, çoxşaxəli və kompleks xarakterli islahatlar ölkəmizin milli gücünün artmasına xidmət edib. Vətən müharibəsində əldə edilən tarixi Zəfərdən sonra Azərbaycana qovuşan Qarabağın bərpası, dirçəldilməsi yolunda 3 il ərzində Prezident cənab İlham Əliyevin tapşırıq, göstəriş və tövsiyələri ilə mühüm addımlar atılıb, düşməndən təmizlənən yaşayış sahələri üzrə Strateji Fəaliyyət Planı hazırlanıb və vahid konsepsiya əsasında bütün ərazilərin və şəhərlərin bərpasına başlanılıb. O cümlədən ölkə rəhbərinin tapşırığı ilə yaşayış məntəqələrimizin “ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyası əsasında qurulması istiqamətində mühüm layihələr gerçəkləşdirilib, keçmiş köçkün əhalinin öz dədə-baba yurdlarına qayıdışına başlanılıb. Məhz Müzəffər Ali Baş Komandan və böyük diplomat cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük müharibədən sonra ərazi bütövlüyümüz, 1 günlük antiterror əməliyyatından sonra suverenliyimiz bərpa olunub. Artıq bütün Azərbaycan ərazilərində üçrəngli bayrağımız dalğalanır.

Azərbaycan Prezidenti postmüharibə dövründə də diplomatik cəbhədə uğurlara imza atmaqdadır. Türkiyə, Rusiya, İsrail, Pakistan kimi bölgəyə birbaşa dəxli və təsiri olan dövlətləri Azərbaycanın yaxın müttəfiqinə çevirməsi, Qərblə qarşıdurmaya getmədən münasibətləri bərabərhüquqlu tərəflər kimi saxlaması, türk dövlətlərinin bir-birinə yaxınlaşması sahəsində gördüyü işlər, Qoşulmama Hərəkatına üzv dövlətlər arasında yüksələn nüfuzu, ölkəmizin Şərqlə-Qərb arasında tranzit əhəmiyyətinin daha da artması – bütün bunlar cənab İlham Əliyevin son üç il ərzində qazandığı uğurlardır.

***Onun prezident olduğu dövrdəki ən böyük uğuru isə, təbii ki, Qələbədir! Bu Qələbə həm də cənab İlham Əliyevi yenidən kəşf etdi, onu Azərbaycana və dünyaya yenidən tanıtdı. Cənab İlham Əliyev Azərbaycan dövlətini və xalqını XXI əsrin qalib dövləti və xalqı etməyi bacardı. İndi dünyada elə bir azərbaycanlı tapmaq mümkün deyil ki, öz Prezidenti ilə fəxr etməsin. Bu isə dövlət başçısına olan böyük Xalq Sevgisidir. Elə 63 yaşını tamamlayan Prezidentə ən böyük hədiyyə də budur!***

✍ **Səbuhi HƏSƏNOV**

# Qalib bəllidir: Azərbaycan xalqı!



*Ölkəmizin erməni faşizmi üzərində Böyük Qələbəsinin ardından Xankəndi stadionunda daha bir tarixi qələbə qazanıldı. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin topa rəmzi toxunuşu ilə başlanılan “Qarabağ”-MOİK oyunu bütün dünyaya Böyük Zəfərimizi futbol dili ilə də elan etdi:* ***top artıq Azərbaycanda, onun güclü rəhbərindədir!***

Futbol 90 dəqiqədir və nəticəsi nə olursa-olsun, həmişə qazanan idman, fiziki sağlamlıq, sağlam düşüncə və insanlar arasında sülh və sevgi hissləridir. Odur ki, qalib dövlətimiz Qarabağı sonuncu separatist ünsürdən azad etdikdən sonra burada apardığı sürətli yenidənqurma işləri ilə paralel olaraq mühüm sosial-mədəni infrastruktur sahələrinin də yenilənməsinə ciddi fikir vermiş və çox qısa müddətdə, cəmi 3 aya Xankəndi stadionunu da böyük futbol oyunları üçün yararlı hala salmışdır. Həmin stadion ki hələ ötən əsrin ortalarında Azərbaycanın öz maliyyə vəsaitləri hesabına inşa edilmiş, burada gözəl, yaddaqalan oyunlar keçirilmiş, işğal dövründə isə separatist ünsürlərin bərbad top meydançasına, erməni baş nazirin isə səy-səy bəyanatlarına şahidlik etmişdi. Bu gün isə öz əsl sahiblərini mavi, qırmızı, yaşıl rəngləri ilə salamlayan Xankəndi stadionundakı oynanan futbol başlama vuruşundan final fitinə qədər bütün izləyicilərin yaddaşında xalqımızın böyük qələbəsinin simvolik bir rəmzi kimi qaldı. Beləcə, 30 il ərzində hər vasitə ilə “separatist oyunu” uzatmaq istəyən Ermənistan və onun Qarabağdakı tör-töküntüləri bu dəfə Xankəndi stadionunda böyük hesabla məğlubiyyətə uğradıldılar.

Azərbaycan futbolunun Avropada layiqli təmsilçisi “Qarabağ” futbol komandası öz doğma stadionuna qayıtmaqla dünya idman ictimaiyyətini də Qarabağa qaytarmağa nail oldu. Əsl futbol bayramı yaşanan Xankəndiyə toplaşan bütün insanlar, istər “Qarabağ”, istərsə də MOİK azarkeşləri, dəvət olunmuş veteran futbolçular, elə sahədəki futbolçular özləri də 30 ildən sonra bu torpaqlara qayıdan böyük sülhü, onun böyük memarı Prezident cənab İlham Əliyevi ayaq üstə alqışladılar. Dünya gördü ki, Azərbaycan xalqı öz torpaqlarına mədəniyyət, musiqi, turizm və idmanla qayıdır. Bunlar isə həmin sahələrdir ki, bütün dünyada, elə bu gün Azərbaycanın qələbəsini həzm edə bilməyən bəzi Avropa ölkələrində sosial-mədəni inkişafın əsas göstəriciləri hesab olunurlar. Onların əksinə olaraq Xankəndi stadionunda səslənən möhtəşəm Azərbaycan Himnini əli ürəyinin başında oxuyan minlərlə insan dünyaya xalqımızın sülh, əməkdaşlıq tərəfdarı olduğunu, bizim heç vaxt müharibə tərəfdarı olmadığımızı bir daha sübut edib, yeni bir tarixi dövrün də başlandığına şahidlik etdilər.



Xankəndidəki futbol oyununa qədər Azərbaycan erməni faşizminə, onu bəsləyən qüvvələrə sarsıdıcı zərbələr endirib. Xankəndi stadionunda meydana çıxan MOİK futbolçularına azarkeşlik edən əsgərlərimiz hələ üç il əvvəl düşmənə endirdiyi “dəmir yumruq” zərbəsi ilə bütün Cənubi Qafqazdakı reallıqları yenidən formalaşdırdılar. Dövlət başçımızın meydanın mərkəzindəki topa endirdiyi ilk zərbə isə siyasət oyunçularına da bir ustad dərsi olmaqla, yarışan bütün tərəflərə sağlam rəqabət aparmağı, çalışmaqla, dinc əməkdaşlıqla qalib gəlməyin yolunu göstərdi. Ölkə Prezidenti göstərdi ki, Azərbaycanın Xankəndidəki möhtəşəm Zəfər paradı hələ davam edir və bundan sonra işğal izlərinin aradan qaldırılacağı hər bir şəhərimizdə bu eyni təntənə ilə davam edəcək. Şübhəsiz, regionda gedən bütün siyasi oyunları dərindən oxuya bilən dövlət başçımız istədiyi oyunçuya qırmızı, istədiyinə sarı vərəqə göstərməklə kimin Cənubi Qafqazda baş hakim olduğunu hər yerdə deyə biləcək gücdədir. Ona görə də Xankəndidəki bu tarixi oyun, ölkəmizdə Xalq-Ordu birliyinin təntənəsi kimi bütün dünya ölkələrinin siyasi liqaları arasında ən güclüsünün məhz Azərbaycanda olduğunun da bir nümayişi idi. Odur ki, bu oyundan sonra hər kəs – istər revanşistlər, istər küskünlər, istərsə də onları qızışdıran azarkeşlər papaqlarını qabaqlarına qoyub bir daha düşünməli, siyasətdəki “fair-play” qaydalarına ciddi əməl etməlidirlər.

Azərbaycanda da çox sevilən futbol milyonların oyunudur, dünyada azarkeş kütləsinə və iqtisadi dövriyyəsinə görə ön sırada olan bir idman növüdür. Futbol həvəskarlarının yaddaşında gözəlliyinə və tamaşaçı marağına görə yüzlərlə, bəlkə də, minlərlə oyun iz buraxmışdır. Ancaq tarixi-bəşəri dəyərinə görə indiyə qədər iki futbol oyunu hər zaman yaddaşlarda qalacaq. Birinci belə oyun 1914-cü ilin dekabrın 25-də Birinci Dünya müharibəsində düşmən tərəflər olmuş ingilis və alman əsgərlərinin yeni il ərəfəsində Belçikanın Varneton şəhəri ətrafındakı üzbəüz səngərlərdən çıxaraq yoldaşlıq oyunu keçirmələri olmuşdur. Avropa futbolunun baş idarəsi UEFA tərəfindən isə həmin futbol matçında iştirak etmiş əsgərlərin şərəfinə 100 il sonra abidə qoyulmuşdur. İkinci belə bir tarixi əhəmiyyətli oyunun 109 il sonra məhz eyni ayda Xankəndidə keçirilməsi isə regionda yeni müharibə ssenariləri cızanların bütün planlarını alt-üst etməklə yeni oyun qaydalarının da yazılmasında bir dövrün başlanğıcı oldu: ədalətli olan gec-tez qalib gələcək.

*Əgər yeni oyun başlasa, bu dəfə “Qarabağ”-“Zəngəzur” arasında olacaq!*

✍ **Əli CABBAROV**

## Lider qızların Naxçıvana səfəri davam edir



"Yeniyetmə qızların liderlik və motivasiya məktəbi" layihəsinin lider qızlarının Naxçıvana səfərinin 2-ci günündə "Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri Kəmalə Ağazadə, onun nümayəndə heyəti və Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzində reabilitasiya keçən 11 nəfərdən ibarət həssas qrupdan olan lider qızların növbəti görüşü Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı, Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili Günay Rzayeva və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Əməkdar həkim Yazgül Rzayeva ilə olub.

Görüş zamanı İnsan Hüquqları üzrə Müvəkkil Günay Rzayeva Ombudsman təsisatı haqqında məlumat verib. Qeyd edilib ki, ölkəmizdə uşaq hüquqlarının təbliğinə, hüquq düşüncəsinin, hüquq mədəniyyətinin inkişaf etdirilməsinə, uşaq hüquqlarının müdafiəsinə və onların problemlərinin həllinə böyük diqqətlə yanaşılır. Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrlərdən başlayaraq insan hüquq və azadlıqlarının təmini məsələsinə xüsusilə diqqət yetirilib.

Müvəkkil Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin də bu sahəyə hər zaman xüsusi önəm verdiyini, Onun rəhbərliyi ilə ölkəmizdə insan hüquqları sahəsində mühüm nailiyyətlərin əldə olunduğunu söyləyib.

Görüş qonaqlarla çay süfrəsi arxasında davam edib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı tərəfindən uşaqlarla motivasiya xarakterli söhbətlər aparılıb, onları maraqlandıran suallar cavablandırılıb. Sonda qızların hazırladığı Naxçıvanın qədim abidələrinin əks olunduğu tablo Günay Malikqızına təqdim olunub.

✍ **Bülbül QULİYEVA**

## Gender məsələləri üzrə məsul şəxslər üçün təlim keçirilib



*Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Gender bərabərliyinin təminatları haqqında" Qanunun həyata keçirilməsində genderə məsul şəxslərin rolu" mövzusunda təlim təşkil edilib.*

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova təlimi giriş sözü ilə açaraq bildirib ki, ölkəmizdə gender bərabərliyi, eləcə də qadın və uşaq hüquqlarının təmin olunması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Gender bərabərliyi siyasətini səmərəli şəkildə həyata keçirmək üçün nazirlik, komitə, agentlik, xidmət və digər dövlət müəssisə və təşkilatlarında gender məsələləri üzrə məsul şəxslər təyin edilib.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova bildirib ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra gender bərabərliyinin təmin edilməsi ilə bağlı vacib işlər görülüb, kişilər ilə qadınlara bərabər imkanların yaradılması üçün tədbirlər həyata keçirilib.

Təlim çərçivəsində Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Aytəkin Hacıyeva, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Siyasətin fəlsəfəsi və sosiologiya şöbəsinin müdiri, professor Rəna Mirzəzadə, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sektor müdiri Vəfa Ələkbərova gender bərabərliyinin təmin edilməsi, qadın hüquqlarının müdafiəsi, cinsi ayrı-seçkiliklə mübarizə üsulları və digər məsələlərlə bağlı çıxış ediblər.

Sonda müzakirələr aparılıb, suallar cavablandırılıb.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları "Şərq qapısı" qəzetində görəcəksiniz.***

## Qəlbi daim Vətən üçün döyünən eloğlu

Gördüyü işdən, tutduğu mövqedən və yaşadığı yerdən asılı olmayaraq, qəlbində Vətən sevgisi daşıyan hər bir şəxs vətəndaşlıq borcunu yerinə yetirməyə səy göstərəndə əsl azərbaycanlı adını daşımağa layiq olur. Doğulduğu yurddan yüzlərlə kilometr uzaqda yaşasa da, qəlbi həmişə Azərbaycan üçün döyünən insanlar yaşadıqları yerlərdə doğma vətənlərini layiqincə təmsil etdiyi zaman bu Vətənin suyu, çörəyi ona halal olur. Dünyanın bir çox dövlətlərində yüzlərlə azərbaycanlı yaşayır ki, onların bir çoxu öz əməli işi ilə bu Vətənin əsl övladı olduğunu sübuta yetiriblər. Vətəndən uzaqda olsalar da, qəlbləri daim Vətən üçün döyünən həmvətənimizi tanımaq üçün dörd bir yana soraq salıb, onların haqqında məlumat toplayanda biz də qürur duyuruq ki, elimizin belə oğul və qızları var.



Onlardan biridir Murmansk vilayəti "Azərbaycan Mədəniyyət Mərkəzi" İctimai Təşkilatının sədri, Murmansk vilayəti İctimai Palatasının, Murmansk vilayətinin qubernatoru yanında Milli Məsələlər üzrə Məşvərət Şurasının və Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin Miqrasiya şöbəsinin üzvü ***Afil Hüseynov***. Müsahibimiz 7 may 1966-cı ildə Şərur rayonunun Kərimbəyli kəndində dünyaya gəlib, kənd tam orta məktəbini bitirdikdən sonra 1983-1984-cü illərdə Energetika Texnikumunda təhsil almışdır. 1984-cü ildə Murmansk vilayətində yerləşən Hərbi Dəniz Donanmasında xidmət edib. Sonrakı illərdə A.S.Qriboyedov adına Moskva Beynəlxalq Əlaqələr və İqtisadiyyat İnstitutunun Hüquqşünaslıq fakültəsinə daxil olub, oranı müvəffəqiyyətlə bitirib.

Müsahibim dedi ki, hərbi xidmət üçün gəldiyi şəhərdə qalmaq fikrinə düşəndə gələcək üçün bir çox planlar qurub. Onlardan ən əsası burada Azərbaycan icmasını yaratmaq olub. İllər keçdikcə işlərini böyüdüb və söz sahibi olduqdan sonra arzularını bir-bir həyata keçirib. Ümumrusiya Azərbaycanlılar Konqresinin (ÜAK) Murmansk vilayət bölməsinin, Murmansk vilayəti "Azərbaycan Mədəniyyət Mərkəzi" İctimai Təşkilatının sədri olduqdan sonra Azərbaycanla bağlı bütün tarixi günlərin, bayramların qeyd olunmasını, eləcə də xalqımızın başına açılan faciələrin Murmansk vilayətində tanıdılmasını bir missiya olaraq həyata keçirən ən fəal diaspor sədri kimi tanınıb.

O qeyd etdi ki, yaşadığı vilayətdə soydaşlarımızın hüquqlarının müdafiəsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında işlər görürlər. Rusiyada təhsil alan gənclərin koordinasiya olunması, Murmansk şəhərində yaşayan ziyalıların bir araya gəlməsi, Azərbaycan naminə müəyyən layihələrin həyata keçirilməsində əlindən gələni edir. O, bir neçə ali təhsil müəssisəsində "Azərbaycan guşəsi"nin yaradılması üçün səy göstərib. Fəaliyyətinin başlıca istiqaməti həm də yaşadığı və fəaliyyət göstərdiyi Murmansk vilayətində Azərbaycana qarşı olan qüvvələrlə mübarizə, xüsusilə erməni əks-təbliğatının qarşısını almaq, Vətənimizlə bağlı həqiqətləri təqdim etməkdir. Bunun üçün o, Rusiyada bir neçə beynəlxalq tədbirlərin, elmi konfransların, aksiyaların, xeyriyyə tədbirlərinin keçirilməsinə nail olub.

Vətəndən uzaqda olsa da, vətənpərvərliyi ilə seçilən Afil Hüseynov Prezident cənab İlham Əliyev tərəfindən Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı və bir neçə Fəxri fərmanla da təltif edilib.

Afil Hüseynovla söhbət zamanı o xüsusilə vurğulayır ki, Naxçıvandan başlayan azadlıq hərəkatının iştirakçılarından biri və şahidi də olub: "Həmin illərdə gənc olsam da, kəndimizdə Arazboyu başlayan sərhəd hərəkatında iştirak edirdim. Qışın şaxtalı günləri idi, amma bizim qəlbimizdə yanan azadlıq tonqalı, əlimizi qolumuzu isidir, gözlərimizdəki qardaş həsrəti rus ordusunun bizə tuşlanan silahlarını



görünməz edirdi. Bizə heç nə mane ola bilmirdi, nə dizə kimi çıxan qar, nə də illərlə iki qardaşın ayrılıq bayatısını dinləsə də, Arazın isinməyən soyuq suları. Xalqın coşubdaşan azadlıq istəyi qarşısında donan sovet əsgəri bir anda sökülüb tonqala çevrilən sərhəd dirəklərinə necə soyuqqanlıqla tamaşa edirdisə, biz də tikanlı məftillərin əllərimizdə, ayaqlarımızda açdığı yaradan gələn isti qana məhəl qoymurduq. Həmin gün, 70 illik qardaş həsrətinin son olduğu gün özünü Arazın soyuq sularına qərq edən oğullar üzü Cənuba tərəf üzdü. O tay, bu tay Azərbaycan öz doğmalarının görüşünə tələsəndə Arazın qəmli bayatısı sevincli nəğməyə çevrildi. Həmin gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü olmaq şərəfinə layiq görüldü və tariximizə, təqvimimizə yazıldı. Bu gün həmin günlərin şahidi və iştirakçısı olduğuma görə fəxr edirəm".

Afil Hüseynovun keçmiş barədə dedikləri, həmrəylik haqqında danışdıqları mənə üç il öncəki Vətən müharibəsində dünyanın dörd bir yanındakı azərbaycanlıların bir olduğu anları xatırladır:

Necə güclü bir xalq olduğumuzu Vətən müharibəsində daha aydın gördük. Gördük ki, Azərbaycanda doğulub dünyanın müxtəlif ölkələrində yaşayan, işləyən yurddaşlarımız necə bir olub Vətəni müdafiəyə qalxdı.

*Biz həmrəyliyimizi, Vətən sevgimizi dünyanın dörd bir yanından duyurduqca dünya şahid oldu bu xalqın necə gözəl bir xalq olduğuna. Və biz Ulu Öndərimizin **"Mən fəxr edirəm ki, azərbaycanlıyam"** sözünü daha da böyük qürurla işlətdik bu birliyi göründə. Bu torpaq onun suyu, çörəyi ilə böyüyən övladlarına halal olsun dedi.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## Professor Oğuz Ceylan:

### "Azərbaycan və Türkiyənin tarix, mədəniyyət baxımından ortaq tərəfləri çoxdur"



Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda tarixi abidələrin bərpası, onların beynəlxalq səviyyədə qorunması məqsədilə UNESCO-nun maddi-mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün müvafiq işlərin həyata keçirilməsi nəzərdə tutulub. Dekabrın 22-də Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva və Türkiyə Respublikasından olan memarlar Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən bir sıra tarixi-memarlıq abidələrinə baxış keçiriblər. Qonaqlar Naxçıvan şəhərində İsmayıl xan hamamı, Xan sarayı, Möminə xatın, Yusif Küseyir oğlu türbələrinin, eləcə də qədim yaşayış evlərinin tarixi-memarlıq quruluşu, tikilmə texnikası, bərpa perspektivləri ilə maraqlanıblar.

***Memar Sinan İncəsənət Universitetinin professoru, memar Oğuz Ceylan*** Naxçıvan abidələrinin bərpasında yol verilən nöqsanlar, bu nöqsanların aradan qaldırılması yolları, yenidən restavrasiyası istiqamətində görüləcək işlər barədə ***"Şərq qapısı"*** qəzetinə müsahibə verib: – Öncə onu deyim ki, bu ərazidə XII, XIII, XIV yüzillikdən qalma çox qiymətli əsərlər vardır. Müəyyən vaxtlarda bu abidələrdə restavrasiya aparılıb. Möminə xatın türbəsinin bərpasında sementdən istifadə olunduğuna görə zirzəmidən gələn nəm, kondensasiya problemi vardır. Abidədə mərkəzdənqaçma da müşahidə olunur, türbə bir tərəfə doğru əyilib. Əvvəlki formasına qaytarmaq mümkün olmasa da, qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görülməlidir. Ən əsas məsələ sement qatının, ümumiyyətlə, götürülməsidir.

Oğuz Ceylan qeyd etdi ki, restavrasiya olunan zaman öncə qədim arxiv materialları araşdırılmalı, tarixi sənədlər toplanılmalıdır. Ən önəmlisi də abidənin qədim şəkilləri tapılmalıdır. Restavrasiya sırasında biz bu fotolara baxaraq üç layihə hazırlayırıq. Bərpa zamanı isə əvvəlcə istifadə olunacaq ləvazimatların analizi aparılır. Hazırda Şəki yolu üzərində yerləşən Diribaba türbəsi və Şəki Xan Sarayının divarlarının ləvazimat analizləri bizim universitetdə aparılır.

Türk memar onu da bildirdi ki, işi ilə bağlı Azərbaycanın bir sıra bölgələrində olub: – Şəkidə Mirzə Fətəli Axundovun evi var, indi muzey kimi fəaliyyət göstərir. Çox qiymətli bir evdir. Türk memarlığının kökünü mən həmin evdə gördüm. Ümumiyyətlə, Azərbaycan və Türkiyənin tarix, mədəniyyət baxımından ortaq tərəfləri çoxdur. İnanıram ki, birgə fəaliyyətimizlə iki qardaş ölkənin ortaq tarixini, mədəniyyətini qoruyub yaşada biləcəyik.

Qeyd edək ki, dekabrın 23-də memar və mütəxəssislər Culfa və Ordubad rayonları ərazisində yerləşən tarixi abidələrə də baxış keçirəcəklər.

✍ **Nail ƏSGƏROV**

***İtmişdir***

Şərur rayonunun Düdəngə kənd sakini Əliyev Sərdar Əziz oğlunun adına verilmiş JN-1568 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 743